# ŞEİRLƏ DÖYÜNƏN ŞAİR ÜRƏYİ

Bu gün haqqında qürurla yazacağım şəxsiyyət mənim tələbə yoldaşım, şərəfli ömür yolu keçmiş polkovnik-leytenant, şair-publisist, 28 kitabın müəllifi Səməndər Nəsiblidir. Onun keçdiyi həyat yolu pərvazlanan təpər, hünər zirvəsidir. Bu zirvəyə gənclik illərindən iri addımlarla gediş edib. Birinci Qarabağ döyüşlərində fədakarlıq, bəxtiyarlıq, doğruluq, dürüstlük tərəfdarı olub. Misilsiz qəhrəmanlıqlar göstərib. Tovuzda ordu təşkil olunanda korpus komandirinin müavini, Tovuz hərbi hissəsində kəşfiyyat xidmətinin rəisi, Ağdam döyüşlərində şəxsi heyət üzrə komandirin müavini olmuşdur. Bu dövrlərdə çox böyük hörmət və nüfuz qazanır. Elin gözəl sözü var. "Yaxşılığa, yaxşılıq hər kişinin işidir", Göründüyü kimi, elin təsəvvüründə başqalarını yaxşılıq eləmək heç bir təmənna güdmədən insana gərək olmaq igidliyin başlıca nişanəsi sayılır. Səməndər müəllim belə komandirlərdən olub. Yaxşı ad ən mühüm amildir. Döyüşçü yoldaşlarına etdiyi humanistlik, təvazökarlıq hələ də el-obada danışılır. Bu onun səxavətindən, nəcibliyindən irəli gəlir. Ömrünü el üçün sərf eləyənlər yaxşılıq eləməyə qadirdirlər. İnsan dünyaya bir dəfə gəlir, başqalarını gərək olursansa qəlblərdə yaşayıb, adın yaxşılıqla anılır. Səməndər müəllim gözəl biliyə, təfəkkürə malikdir. Başqalarının qeyrətini gözləmək, kömək əlini uzatmaq gözəl insani xüsusiyyətlər məsumluğun və əxlaq keyfiyyətlərinin zənginliyidir.

Səməndər Nəsibli! Bu ad oxuculara yad deyil. Gənc yaşlarında ədəbi-bədii yaradıcılığa şeirlə başlayıb. Yaradıcıllığında publisistikaya da geniş yer verib. Səməndər müəllim publicist yazılarında nəsillərin və talelərin bioqrafiyasını, xronologiyasını yaradıb. Müharibə illərində Həyatdan şirə alan, həqiqi sənət əsərləri yazan şairin istedadlı, gözəllik həsrəti ilə çırpınan bir böyük ürəyi olub. Şeirlərində kədərli-sevincli xatirələr, doğma torpağa məhəbbətin tərənnümü, qəlb döyüntüləri, lirik lövhələr bir-birini əvəz edib. O qəlbində ana torpağı Gədəbəydə keçən günlərini, nisgilli xatirələrini soruşmaq, uşaqlıq nağılları ilə, əfsanəvi xəyallarını düşünmək istəyib. Çox mükəmməl biliyə, huşa, yaddaşa malik bir ziyalıdır- S. Nəsibli. Mən onun söz gülzarından dəstə bağlayıb sizlərə ərmağan etmək istəyirəm. Burada puxtələşmiş yazarların səmimi ürək sözləri öz əksini tapıb. Səməndər müəllim çox güclü qələm sahibidir. Yaradıcıllığında qəzəllər, bayatılar üstünlük təşkil edir.

Ürəkdən aşiq olan dini imandan keçər
Sən onun qəlbini gör adını hallandırma dayan.

İlhamı eşqdən alan, dindən, imandan keçən aşiqimiz təbini, ruhunu sevgi ilə kökləyir. "Səməndər olsa düçar, köfr ilə sındırma, dayan" - söyləyərək məhəbbəti ilahiləşdirir, romantikləşdirir.

Bu da bir cavan idi sevirdi keşiş qızını,
Saf eşq pərvanəsini, naşı adlandırmaq dayan.

Bu şeir haqqında şairə Sonaxanım Aslanovanın fikirlərinə diqqət yetirək: Səməndər müəllimin hər qəzəli bir ürək çırpıntısı, yeni dünya, yeni mənadır. Şair də bir sızıltı, bir titrəyişlə, yanıqlı bir nalə ilə "Əsli-Kərəm eşqinə bənzədilən saf, ancaq oxu daşa dəymiş məhəbbəti dolğun və ətraflı təsvir edib. Eşq dindir, dinə inam asılılıq deməkdir. Bunu ancaq nakam bir eşqin yanğısı ilə yaşayan, dinə tapınan, şirin xəyalların burulğanından çıxa bilməyənlər duya bilər".

Səməndərin şeirlərində insan ruhunun ritmini, ahəngini, təbiətin xoş mənzərəsini , cazibədar sehrli tabloları aydın seyr edirik

Ömrünüz qoy açsın ilk bahar ətri
Başının üstündə Tanrı çətiri
Bələnsin qəlblərdə sizdən ötəri
Lalələr, nərgizlər, bənövşə belə.

Ömrə bahar təravəti gətirir bu gülzarlıq. Bu bir alqış duasıdı.

"Belə" lirikasında Səməndər müəllimin dialekt sözlərdən istifadəsi poetikanın təsir gücünü daha gözəl edir.

Təbiət ovcunda saxlasın sizi,
Həmişə güləsiz, həmişə belə
Bülbül tək çəmənə qonan könlünüz
Düşməsin höyüşə, nəmişə belə.

Qeyd edim ki, bu poetikada bir Dədə Qorqud öyüdü duyulur. İnsanlara bahar, lalə, nərgiz, bənövşə ətirli ömrü Tanrıdan diləyərək öz duyğularını bildirmişdir.

N. Səməndər milli dilin zəngin fonetik quruluşunda, klassik şeirin vəznində, əruzun zəngin əlvan şəkillərini məhz şeirə uyğun sözlər tapıb işlətmək məharətinə malikdir. "Olsun" rədifli qəzəli bu baxımdan daha səciyyəvidir. O, sağlam bədəni, yaxşıların , yaxşısını, çiçək açan arzuları dilə gətirir. Tanrının məskənimizə, el-obaya nur çiləməsinə "Olsun" deyir.

Hər kəs görüm xoş arzuya, xoş diləyə,
Yaradanımın lütfüylə yetəsi olsun
Nə dilər bu Səməndər dostlar üçün
Bir parça da öz ömrünə gələn olsun.

Şair, publisist Səməndər Nəsibli sözlərin hakimidir. Az sözlə çox fikir, hiss ifadə etmək onun sənətinin gözəl xüsusiyyətlərindəndir. Onun hər beyti, hər misrası tamamlanmış bir fikrin ifadəsidir. Bu baxımdan "Qandı"şeirinə diqqət yetirək. Həyat, ömür dərsinin necə xana olduğunu belə izah edir:

Yer aşağı, Göy yuxarı,
Kim dırmasın göy yuxarı?
Səməndərə göy yuxarı
Kimə zülmət, kimə qandı?

Səməndərin lirik şeirlərində hiss və fikir zənginliyi çox güclüdür. Lirik şeirlərdə hiss və əqli idrak birbirini tamamlayır. Şair qəlbinin hissi və duyğuları o qədər şairənədir ki, burada heç bir pafos və ritorika yoxdur, yəni obrazlı təfəkkürün məhsuludur. "Yazı" şeirində Tanrıda yoxdan vara, zamandan yoxa yaşayan, cavanlığı yelə verib, qocalığında dağ yükü götürən ömrün izini, tükənməyən sözünü yazır:



İnkar elə Səməndərə bir bala,
Ürəyində məşəl yandır, od qala,
Duyğuları hey silkələ yırğala
Heç sönməsin ocağında közün yaz.

O bütün hadisələri, rəngləri, səsləri insan qəlbini şeiri ilə obraza çevirə bilir. Tay-tuşları Tanrını, ümmanı özünə kömək sanan şairimiz belə deyir:

İllər keçdi, ürəyimdə göynəyi
Əldə qaldı buza dönmüş köynəyi,
Tay-tuşları bir arxası, köməyi,
Səməndərin bir ümmanı var idi.

Şairə Azəri Soya "Ömrünün"şüirində gənclikdə manatı manat, tümək-tümək xərclənən ömürdən, xoş günlərin ləzzətindən qədəmini 70-ə atan bacımıza ömrün ətəyini tez buraxmasını tövsiyə edir:

Heç kəs gəlməz bu həyata xoşuna
Dolandırıb ömrü-günü boşuna
Çox daş dəydi Səməndərin başına
Çalış dadma təpiyini ömrünün

"Mənim məğrur, qəhrəman, igid, şair təbiətli qardaşım Səməndər!Yazdığın hər yazında fikrini dəqiq, düzgün, dolğun, dürüst ifadə etməyi bacarırsan. Bu sənin əqidən, duyğun, düşüncən, məsləkindir. Bu ürəyinin, qəlbinin səsidir, zəkanın əks-sədasıdır. Baxmağı yox, görməyi, his etməyi, həqiqətləri, gözəllikləri duymağı sözün həqiqi mənasında bacarırsan. Bu sənin uğurun, müvəffəqiyyətin, nailiyyətindir. Səni həyatda da, əqidə də, söz də, sərvətdə həmişə öndə, zirvədə görmək bizim arzumuzdur". Bu sözlər tələbə yoldaşımız İpəknar müəlliməyə aiddir. Onu hamı oxuduğumuz illərdə ən fəal, çalışqan, natiq danışığa malik tələbə yoldaşımız kimi çox sevmişik. Məzun-78 qrupu bizim üçün bir tribunadı, bir dostluq körpüsüdür. Yazarlarımız haqqında fikirlər bu tribunadan səslənir ki, bizlərdə onu qeydə alıb sizlərə ərmağan edirik.

Yazılsın ömürə sevgi dastanı
Sevgiylə süsləsin insan-insanı
Səməndər diləyir ömrün hər anı
Yaradan əl qoysun bu işə belə.

Ünsiyyət gözəlliyini, zənginliyini çox uca tutan Səməndər müəllim ehtiramı, hörməti qiymətləndirməyi bacaran bir insandır. Onun təbiətində sözlə əməlin vəhdəti, bütövlük, məsumluq, namus təmizliyi-, ar gözləmək kimi əxlaqi keyfiyyətlər cəmlənib. Biz ona bu xarakterinə görə həmişə çox böyük saygı duymuşuq.

Məkan əkdi, zaman biçdi, biçildik,
Xəlbirləndik, dənlik, unluq, seçildik,
Yazdan gəlib, əbədiyyətə çəkildik.
Yaxşı-yaman əməl qaldı-üzbəüz.

Şairin yazdığı "Üzbəüz" şeirini Sona Xanım Aslanova belə xarakterizə etmişdir: "Burada iki dünya(olum və ölüm, bu dünya və axirət) arasındakı təsvirində insan həyatında üç böyük hadisəni doğulmaq, yaşamaq və ölmək... haqqında yığcam şərh vermək olar. İnsan necə doğulduğunu bilmir, bu dünyaya xəbərsiz gəlir. Yaşadığı müddətdə həyatın qısalığını mövsümlük bağa bənzədir. Fikirləşmir ki, dünya-axirət var. İnsan yaxşı-pis əməli ilə yalnız xatirələrdə yaşayacaq.

Həyat belə qısa imiş , dar imiş
Bir mövsümlük bağça imiş, bar imiş
Nə yaxşı ki, xatirələr var imiş,
Kimisə anıb, yada salar üzbəüz.

Dünyəvi fikirlə yanaşı bədii ifadə və təsvir vasitələrindən, köhnəlmiş sözlər yerli-yerində məharətlə işlənmiş şeirin təsir gücünü daha da artırmışdı.

*S. Nəsibli.*

Bu şeirində insan həyatını bir güzgü kimi əks etdirmişdir. İki dünya arasında insanı məkan əksə, zaman biçir, dən kimi torpağa basdırır. . . "

Məzun-78 qrupunun ən fəal üzvlərindən olan şair, 1-ci Qarabağ döyüşlərinin iştirakçısı, əzmkar, mərd, qürurlu, adı ilə sayılan-seçilən Rövşən Atakişi oğlu Səməndər Nəsibli haqqında ürəyindən gələn səmimi sözlərini belə demişdir:

"Mənim dostum, qardaşım və silahdaşım. Onun haqqında istənilən xoş arzu-diləklərimi deyə bilərəm və hətta ona yaraşan epitet seçmək məndən ötrü çətindir. Çünki bu epitetlərin zövqündə dayanan biridir. İnstitut illərində oxuduğumuz zaman hər birimizdən öndə idi. Fakültə də səmimi, mehriban, fəal, işgüzar, hazırlıqlı tələbə, gözəl idmançı kimi müəllimlərin nəzərində tanınmış, hörmət qazanmışdır. Onun şairliyini, qələm və ruh adamı olduğunu sonradan bildim. Təvazökarlığın ifrat halı yaradıcılığını gizlətməyə məcbur etmişdir. Əsl istedadı gizlətmək mümkünmü? Yaradıcılığı onu örtülü dünyasından çıxartdı. Biz onu zərif duyğular şairi tanıdıq və belə bir dostumuz olduğu üçün qürur duyduq. 70 yaşına çatan səksəni-doxsanı arzulayan, gəzdiyi çölləri, dağ-daşdakı izləri əldən düşməmiş axtaran Rövşən müəllim belə deyir:

Bu bazardan nəyi aldıq, nə qaldı.
Cibimizdə qəpik-quruş azaldı.
Yalan dünya, Səməndər də qocaldı,
Səksəninə, doxsanına, ya qismət!

Bu qismətdi, bu taledi, bu bəxtdi.
Bu gün mənim, sabah sənin novatdı
Çox danışdın, ay ürəyim, gün batdı,
Səksəninə, doxsanına, ya qismət!

Səməndər müəllim tutmuş yaradıcıllığı çox sahəlidir. Bədii publisistikadan tutmuş qəzələ, qoşmaya, gəraylıya qədər Səməndər müəllim nə yazırsa, yazsın səmimidir, aydın və şəffafdır. Vətən həsrəti, qürbət ömürlü soydaşlarımız haqqında oçerkləri yetərincədir. Səməndər müəllimRusiyanın əksər regionlarında yaşayan azərbaycanlı vətəndaşların həyatı, işləri, bir-birləri ilə yaxınlıq, dostluq əlaqələrinə qədər öyrənmiş və sanballı kitablar ərsəyə gətirmişdir. Səməndər müəllim vətənpərvər bir ziyalı, örnək bir igiddir".

Səməndər Nəsiblinin yaradıcılığında məhəbbət şeirləri üstünlük təşkil edir. Onun ürəyində olan ilham pərisi, lirik "mən"i qəlbində silinməz izlər qoyub. Sərv boylu, uzun saçlı, bəyaz üzlü, al-yanaq, lalə dodaq gözələ həsr edən qəzəl və şeirlərindən "Aparar"-a diqqət yetirək.

Dilimə qıfıl vurub, ey dili-divanə, apar
Əlimə heç dəyməmiş, o dolu peymanə, apar.
Sənə ağız açıb, üzüm yoxdur qal deməyə,
Həsrətin nizə edib, könlümə nişanə apar.

***(Davamı 15-ci səhifədə)***

# ŞEİRLƏ DÖYÜNƏN ŞAİR ÜRƏYİ

*(Əvvəli 14-cü səhifədə)*

Bu ibrətli qəzəldə saflıq, məsumluq, bütövlük, sevgisi ilə alışıb yanan, vüsala qovuşa bilməyən bir aşiqin etiraz səsini duyuruq. Kamil gözəlliyi saf məhəbbəti şövqlə canını onun eşq xəstəsiyəm, ruhumu o canə apar deyir:

Eyləyib ərsi bülənə Səməndərin atəşini,
Toplayıb sağı-külün sevgili cananə apar.

Möhtəşəm bir eşq hekayəsi, ürəkdə qocalmayan məhəbbət dastanı şair Səməndərin belə qəbil şeiriyyətindən bir dastan bağlamaq olar.

Məzun-78 qrupunun fəal üzvü şairə, publisist Sona xanım Aslanova Tovuzun igid, qəhrəman oğlu Səməndər Nəsibli haqqında səmimi ürək sözlərini belə demişdir: "Qəhrəman Tovuzun igid, qəhrəman oğlu Allahın varlığına inanan, xalqına söykənən, poetikası sevilə-sevilə oxunan tanınmış ziyalılarımızdan biridir. Birinci Qarabağ müharibəsində mərd, mübariz komandir kimi, Tovuzun hər qarış torpağı üçün canından keçməyə hazır olan Səməndər müəllim torpağımızın azadlığı naminə böyük rəşadətlər göstərmiş el-obanın xatirində silinməz izlər buraxmışdır. Şair Məmməd Arazın:

"Vətən daşı olmayandan
Olmaz ölkə Vətən daşı"-

sözlərini yaddaşına həkk edərək həm də öz taleyini sözə, şeirə, sənətə, ədəbiyyata bağlamışdır. Şair, publisistin 25-dən çox əsərləri çapdan çıxmışdır. Onun "Volqada sayrışan ulduzlar", "Qürbətdə yanan işıqlar", "Hardasa bir ocaq gözləyir məni", " Öndə qürbət, qəlbdə Vətən" adlı kitabları xalqımızın, soydaşlarımızın arzu və istəkləri, həyat fəaliyyətləri, vətənimizin qüdrəti, dövlətçiliyimizin möhkəmlənməsi baxımından, mənəvi-psixoloji yöndəmində bu günkü gəncliyə çox vacib olan keyfiyyətlər aşılayan sanballı və dəyərli bir töhfələrdir. Publisist jurnalist Səməndər Nəsibli poeziya sahəsində də sözünü demiş şairlərimizdəndir. Onun əruz vəznində yazdığı qəzəlləri, lirik şeirləri, xalq yaradıcılığına söykənən bayatıları oxucuları tərəfindən sevilə-sevilə oxunur.

Ömrünün ən gözəl çağlarını qəm-kədər içərisində keçirən, erkən yaşlarında qardaş-bacılarını itirən, döyüşlərdə, silahdaşlarını, ən əziz dostlarını, cavanları qucağında daşıyan, tikələrini yığıb torpaqda dəfn edən şairin yaradıcıllığında qəmli notlara köklənmiş qəzəlləri üstünlük təşkil edir. Qanlı- qadalı illərin xatirəsi ilə yaşayan şair "Necəsiz"qəzəlində bu hadisələri, döyüşçü əsgərlərini bir komandir kimi xatırlayır:

Söyləyin, necəsiz, ey dostla sadiqlər, necəsiz?
Açılsın bəxtimə ətirli güllər, necəsiz?
Bir dostluq hökm eyləyir bu yerlə-göy arasında
Dağıdır qəlbi ilə bu seyri-Səməndər, necəsiz?

Şairin "Sevəm", "Anlamayır", "Gəlməz" və s müxtəlif cilalarla bəzədilmiş qəzəlləri yetərincədir. Onun heca vəznində yazdığı "Dandı", "Yaz", "Var idi", "Qadasın aldığım" və s. şeirlərində rəngarənglik üstünlük təşkil edir. Sevgilisinə müraciətlə yazdığ " Qadasın aldığım" şeirində məhəbbət mövzusu ilə yanaşı el-oba, yurd sevgisidə öndə dayanır".

Yad ölkədən bizə vətən yad olmaz
Çay daşına bəzək vursan dürr olmaz. .
Yaşlı adam qürbət eldə duranmaz.
Anla bunu, bil qadasın aldığım.
Pozularsa aralıqda düz ilqar,
Həsrət, hicran Səməndərə dərd olar.
Öz kökündən qopsa budaqlar tez solar,
Ətir saçmaz gül qadasın aldığım.

Tovuzda ordu təşkil olunanda korpus komandiri müavini, Tovuz hərbi hissisində kəşfiyyat xidmətinin rəisi, Ağdam döyüşlərin şəxsi heyət üzrə komandirin müavini kimi adı-sanı ilə sayılan-sevilən, insani keyfiyyətlərə malik bir insan kimi sevilmiş, böyük hörmət və nüfuz sahibi olmuşdur. Hərbidə döyüş dostlarından biri İskəndərov Zakir (Şakir) Səməndər müəllimin gözəl qəlbə, xasiyyətə malik bir insan, əsilzadə kimi haqqında xoş təəssüratlar danışırdı. Qeyd edirdi ki, komandirimiz vətən məhəbbətindən yoğrulub-yapılıb, el qeyrəti ilə isinmiş qəlbinin hünəriylə ucalmışdır. Çox sadə, səmimi, mehriban rəftarı vardı, hiss etmirdik ki, komandirimkizlə oturub-dururuq. Çox qayğıkeş, yanımcıl, biri idi. Adı gələndə hamının üzündə xoş sima canlanırdı. Səməndər Nəsibli belə gözəl xislətli bir insandır. Allah ona sağlıqlı ömür versin. "Zakir qardaşımızın döyüşçü silahdaşına dediyi dərin mənalı misraları qanad çalaraq bir dost portreti yaratmışdır. Tovuz rayonu saz-söz məskənidir. Bu Səməndər müəllimə olan poetik duyumlardır.

Əzizim, aşım qardaş
Çınqılım, daşım qardaş,
Qazandığın adınla,
Ucaldı başım qardaş.

Yeddi arxa dolandı,
Sular çarxa dolandı,
Səməndərlə dostluğumuz
Axirətə qalandı.

Səməndər müəllimə həsr olunan heç kəsi təqlid etməyən duyğulardan, orijinal şeiriyyətlərdən bir çələng hörmək olar. Bunlardan şairə Tamara Bədəlovanın şeiri daha kövrək notlara köklətdi bizi. Bu bir bacı duası idi. Ürəkdəki qorxunu, tələşı qovaq, gözlərdən sevinc yaşı axsın: "Bacın Tamaranı qoyma nigaran" söyləyərək, hisslərini belə ifadə edir.

Bacın Tamaranı qoyma nigaran
Gözümüz yollarda qalıbdır inan.
Xəbər gözləyirik səndən hər zaman,
Ürəkdən qorxunu özün soyut, gəl!

Şairə Qalya Quliyevanın "Zaman" şeiri süjetlidir. Ömrün-günün, vaxtın, zamanın gedişindən gileylənib atını dörd nalla çapan, ömrə bir az da dad-duz qatan Səməndər müəllimə belə deyir:

Get yıxıl yat, bax Atlasın sözünə
Cəza vermə göz görəti özünə
Allah bilir bu işlərin düzünə
Zaman gedir, dayanmır ki, ay qardaş.

Qalya müəllimə şair Səməndəri dağ vüqarlı, igid, vətən canlı, ellərə dayaq, bəd nəsillərə qənim kəsilən bir insan kimi tərənnüm edib.

Sən söz adamı, söz sərrafısan
Bu məzun qrupunun komutanısan
Həm topu, tüfəngi, həm də tankısan
Sən Allah yıxılma, yıxılma qardaş.

Şair, publisist Mehriban Ələkbərova demişdir: "Yaradıcılığında qəzəllərə, sərbəst şeirlərə üstünlük vermişdir. Burada Səməndər müəllim qəzəlin şəkli xüsusiyyətlərini qorumuş, düşündürücü poetik nümunələr yaratmışdır. Onun "Məni", "Qaldı", "Olsun", "Axtarma", "Anlamayır" və s. bu kimi qəzəllərində rəngarəng söz çalarlarına rast gəlirik. "Anlamayır" qəzəlinə diqqət yetirək.

Gətirildi bu zalım gör necə bəd hala məni
Baş çıxarıb nə təbib nə də loğman anlamayır.

Şair bu beytdə bildirmək istəyir ki, sevdiyi canan onu elə hala salıbdır ki, hər şeyə çarə qılan təbib, loğman bu işlərdən baş çıxarmayır, dərdinə əlac edə bilmir.

Vermirlər yarə xəbər çarə edə dərdimə o,
Eşq odun nə olduğun, bəlkə cahan anlamayır.

Mehriban xanım qeyd edir ki, nədən müşgül işimə düçar olduğunu yarə xəbər verilməsindən şair kədər hissi keçirir. Verilmiş beytdə aşiqin qəlb çırpıntılarını, eşq atəşinin məraz və sintaktik fiqurlarla yerli-yerində istifadə olunması qəzəlin gücünü daha rövnəqli etmişdir.

Tutaram mən yarı göydə günəşə bərabər,
Səməndər dərd odur ki, dərdi canan anlamayır.

Məqtə beytində sənətkar inversiya, təşbeh və poetik xitabdan istifadə edərək bu sevdaya düşdüyünü yana-yana qələmə alır. Şairim pünhan qalmasından gileylənərək deyir:

Qoymayır sirrini heç saxlamağa pünhanda yer,
Göstərir açıq-aşkar, edir peşman anlamayır.
Şair burada onu anlamayan yarı olduğunu heyfslənir."

Səməndər Nəsibovla biz 1974-1978-ci illərdə GDPİ-nin dil-ədəbiyyat fakültəsində eyni kursda oxumuşuq. Hələ o illərdə Səməndər, Qvami, Hidayət Allahverdi, Rövşən, Tahir, Vidadi, Əliağa öz savadı, zəkası, məktəbin ictimai işlərində, tədbirlərində fəal iştirakları ilə yadda qaldılar. İnstitutu bitirdikdən sonra tale bizləri ayırdı. Uzun illər bir-birimizi görmədik. Səməndərin öz sözləri ilə desək hərə bir tərəfdə öz taleyinin oyununa başı qarışdı. Sonralar 45-50 il sonra Səməndər şeirlərinin birində yazdı:

Xoş günlərin ləzzətini dadmısan,
Qədəmini yetmiş yaşa atmısan,
İndiyədək çox qəflətdə yatmısan,
İndi gözlə cəpiyini ömrünün.

Bildiyimiz kimi80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağ hadisələri başladı. Başımız Qarabağın qara taleyinə qarışdı. Çox dəhşətli gördük, yaşadıq. Bir-birimizdən xəbərimizi olmadı. Birinci Qarabağ müharibəsi başlayanda başqa igid oğullarımız kimi Səməndər də cəbhəyə gedir, kəşfiyyatçı, komandir olur. Çox böyük fədakarlıqlar göstərir. Döyüşlərdə yaralanır, yenə də silahı yerə qoymur. . . Bütün bunları biz 45 il sonra biləcək və yenidən uca yaradan qrupumuzun digər igid oğlu Hidayətin vasitəsi ilə görüşəcəyik. Nəhayət, 2025-ci ildə Səməndər "Gəl axtarma itiyini ömrünün" adlı qoşmasında bütün olub keçənləri xatırlayaraq yazacaqdı.

Heç kəs gəlməz bu həyata xoşuna
Dolandırıb ömrü-günü boşuna
Çox daş dəydi Səməndərin başına
Çalış dadma təpiyi ömrünün.

Hörmətli, Səməndər müəllim, "Od olmasa, tüstü çıxmaz" deyərlər. Bu kələfinin ucunu itirən dünyada, o odun-alovun içərisində baş çıxarıb, atılan daşlara rəğmən bu gün 28 kitabın müəlllifi olan şair, publisist, cəfakeş, müəllim, birinci Qarabağ müharibəsinin qazisi, veteranı kimi varsansa nə xoş sənə və bizə.

Səməndər müəlim ana dilini, Türkiyə türkcəsini, rus və fars dillərini mükəmməl bilir. Geniş dünya görüşünə, ensklopedik biliyə malik olan şairimizə adam həsəd aparmaya bilmir. Fars dilini bilməsi şairin qəzəllərinin daha mükəmməl olmasına səbəb olub. Yəni Səməndərin qəzəlləri həm forma, həm də məna, məzmun baxımdan daha rəngarəngdir. Qəzəllərində sözlərdən çox ustalıqla istifadə etməsi diqqət çəkir.

"Burdayam" adlı qəzəlini mənim "Hardasan" adlı qəzəlimə cavab olaraq yazıb.

-Ey mənə məndən yaxın, sevgili canım, hardasan?
Gəzirəm əldə çıraq dərdə dərmanım, hardasan?

Cavab olaraq şair yazır:

Olma, gəl, naleyi zar, ey ahu fəğanım burdayam
Olmadın mənə dayaq, qəlbə dayağım burdayam.

Şair burada konkret ona müraciət eləyən şəxsə cavab olaraq bu qədər ahu, zar eyləmə, sən mənə dayaq olmasan da mən sənin yanındayam

Amma ikinci beytdə:

Tanrı laməkan deyil, məkanı bil canlar olub
Canında məkan tutub al ki, sorağın burdayam

- deməklə bildirir ki, Tanrı yersiz, yurdsuz deyil onun məkanı candır. Yəni, şair burada Allahın "mən sizə şah damarınızdan da yaxınam" mətləbini çox məharətlə anlatmışdır.

Ruhumda qərar tutmuş, dolaşır şah damarında
Dilərsən onu görmək, var onunla bağım burdayam

Yəni - o laməkan dediyin Yaradan mənim ruhumdur, canımdadı. Əslinə qalsa yerdə quru cismim qalır, heç o da mənim deyil. Nə qədər ki, ruhum var, sağsan, hara qədəm qoysan onu kənarda axtarma, O, sənin canındadır, səninlədir. Qəzəldə naleyi zar, ahu fəğan, nuri çırağım, nuri dağım kimi yerində işlənmiş ifadələr qəzəlin təsir gücünü, ifadə gözəlliyini daha da artırır. Əsas fikir, ideya mənə görə aşağıdakı beytdə daha dolğun ifadə olunub":

Ruhumda qərar tutmuş dolaşır şah damarında
Dilərsən ahu görmək, var onunla bağım burdayam.

Qeyd etmək yerinə düşərdi ki, tələbə yoldaşlarından Mehriban, Tamara , Qalya və Sona müəllimə Səməndər Nəsiblinin səhhəti ilə bağlı cərahiyyə əməliyyatına getməsindən təsirlənmiş və ona şeirlər ithaf etmişlər. Sona müəllimə dözümlü, dəyanətli, qəhrəman, igid qardaşını həkimə əmanət edərək, onu sevən elim var deyir. Öz xalqına gərəyi, bir ocağın dirəyi, bıçaq altında yatan ürəyi adlandırır.

Sən də bir əmanətim var, ey həkim
Döyüşlərə sinə gərmiş, qayıtmış,
Düşmənlərə qalib gəlmiş qayıtmış,
Qəhrəman igidim var, ey həkim.

Mehriban xanımın da bu qəbildən olan "Ey həkim" şeiri həkimə müaricətlə yazılmış poetikadır. Əlindəki cərrah bıçağı ilə gör kimin qəlbini deşir, Əli necə qıyır? Bədii suallarla verilən şeirdə Səməndər müəllimin odlu-alovlu döyüşlərinə işarə edərək, oddan, alovdan keçən səngərdə bərkiyən, qardaşına xuda kömək olsun deyir.

Sözlərin yarımçıq qalmasın, qardaş,
Olubsan hər zaman bizlərə sirdaş.
Qoyma bu gözlərdən axsın qanlı yaş,
Yoxsa ahım səni tutar, ay həkim.

Bunlar bir şəfa dualarıdır. Bu dualar bu şeiriyyətlər ürəkləri fərəhləndirən, sərinlik gətirən duyğulardır. Hərənin nəsibinə bir şey düşür. Sən kiməsə lazımsan. İnsan kimi həyatda yerini tapan sevilən qardaş və yoldaşsan. Bu da bir bəxtəvərlikdir. Siz təmiz ürəklə, sədaqətlə, pak yaşamaqla bu ürəyi qoruyub saxlamısınız. Bəzən adi bir xatirədən ruhən cavanlaşırsan, min sevinclə fərəhlənirsən. Əhvalatlar yada düşür, dil açıb dindirir səni. Bu yazı da tələbə dostlarının sizə bir xatirəsi olsun, Qardaş!

Səməndər müəllim ömrünüz-gününüz cənnət Gədəbəyin abu-havasında keçirmisiz. Gəncliyin enişli-yoxuşlu yollarında büdrəmədiniz. 1-ci Qarabağ müharibəsində canlı döyüşlərində tarix yazdınız. Polkovnik-leytenant, diplomlar, titullar xalqın məhəbbəti, adsan, şöhrət baş tacınız oldu. Gözəl ailən, üç oğul övladın, nəvələrin, şərəfli ömür yolun dünyalıq arzularınız var. Götürümlü, ötürümlü olub, yerini-yatağını bildin, hər şeyi açıb-ağardıb hər sözü qavğarmadın. Könül alıb könüllləndin. Ömrün uzun, arzuların çin olsun. 100 il yaşa!Yaradıcılıq üfüqləriniz daha geniş fəzaları fəth etsin. Ömrümüzün ixtiyar çağında kövrək hisslərlə köklləndim. Əgər poetik duyumlarınızda bir damla götürdüm. Bu işdə mənə yaxından köməklik edən şair qardaşın Rövşən Atakişinin könüllərini sözə-şeirə bağlayan Qalya, Tamara, Mehriban, xüsusilə böyük həvəs və canfəşanlıqla bu yazılara sidqi-ürəkdən kömək edən Sona xanım Aslanovaya minnətdaram. Sizə təşəkkür edirəm ki, hər könüldə bir isti yuva qurmusunuz. Siz sevilərək yaşayan bəxtiyar insan, ürəklə anılan şəxsiyyətsiniz, şair, publisist, Tovuzun qəhrəman oğlu Səməndər Nəsibli!..

***Həyat RÜSTƏMZADƏ***